**Bakı Ali Neft Məktəbinin 18.11. 2013-cü il**

**tarixli 86 nömrəli əmri ilə təsdiq edilmişdir**

# BAKI ALİ NEFT MƏKTƏBİNİN TƏLƏBƏLƏRİNİN

# DAXİLİ İNTİZAM QAYDALARI

**Maddə 1. Ümumi müddəalar**

**1.1.** Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Bakı Ali Neft Məktəbi (bundan sonra BANM) Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli 539 nömrəli Fərmanı ilə yaradılmış, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Prezidentinin 30 noyabr 2011-ci il tarixli 173 saylı əmri ilə təsdiq edilmiş, 29 fevral 2012-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış Nizamnaməsi əsasında fəaliyyət göstərən və müvafiq səviyyələr (bakalavriat, magistratura, doktorantura) üzrə ali təhsil proqramlarını həyata keçirən dövlət ali təhsil müəssisəsidir.

**1.2.** "Bakı Ali Neft Məktəbinin tələbələrinin daxili intizam qaydaları" (bundan sonra "Qaydalar") Azərbaycan Respublikasının təhsil haqqında qanunvericilik aktlarının və BANM-in Nizamnaməsinin müddəalarına müvafiq olaraq tərtib olunmuşdur.

**1.3.** Mövcud qaydalar tələbələr üçün müəyyən edilmiş vəzifələri yerinə yetirməyən, tələb olunan qaydalara riayət etməyən, tələbə adına və ləyaqətinə uyğun olmayan hərəkətlərə yol verən tələbələrə veriləcək intizam cəzalarını, onların tətbiq edilməsi mexanizmini müəyyən etmək məqsədilə hazırlanmışdır.

**Maddə 2. Predmet**

Bu qaydalar BANM-də təhsil alan tələbələrin yol verdikləri intizam qaydalarına zidd hərəkətlər, onlara veriləcək intizam tənbehləri və bu tənbehi tətbiq etmək səlahiyyəti olan şəxslər, intizam təhqiqatı qaydalarını, tələbələri və dinləyiciləri təhsildə yüksək göstəricilər əldə etməyə həvəsləndirmə, təhsildə yüksək göstəricilər əldə etmiş tələbə və dinləyicilərin mükafatlandırılması qaydalarını müəyyən edir.

**Maddə 3. BANM-in hüquqları**

**3.1.** BANM-in Nizamnaməsinə uyğun olaraq, təhsil prosesini təşkil və idarə etmək;

**3.2.** Tələbədən təhsil müddətində bu qaydalar üzrə öhdəliklərinin yerinə yetirilməsini tələb etmək;

**3.3.** Tədris formasını, metodlarını və vasitələrini sərbəst seçmək;

**3.4.**Təhsildə yüksək göstəricilər əldə etmiş tələbələri həvəsləndirmək və mükafatlandırmaq;

**3.5.** Semestr ərzində fənn üzrə ayrılmış auditoriya saatlarının 25(iyirmi beş) faizindən çoxunda iştirak etməyən tələbəni həmin fəndən imtahana buraxmamaq;
**3.6.** Qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**Maddə 4. BANM-in vəzifələri**

**4.1.** Təhsil prosesinin yüksək elmi-metodiki səviyyədə aparılmasını təmin etmək;
**4.2.** Tələbəyə kitabxana, idman kompleksi, və digər elmi, mədəni, sosial infra-strukturdan istifadə etməyə imkan yaratmaq;
**4.3.** Tələbəni fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
**4.4.** Tələbə təhsilini uğurla başa vurduqdan sonra ona təhsil haqqında müvafiq dövlət sənədi vermək;
**4.5**. Qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.
**4.6.** Tələbələri vətənpərvərlik ruhunda tərbiyə etmək, vətəninə və xalqının ənənələrinə bağlılıq, sosial məsuliyyət hissləri aşılamaq və onların sağlam düşüncəli vətəndaş olaraq tərbiyə olunmaları və yetişmələri istiqamətində xidmət göstərmək.

**Maddə 5. Tələbənin hüquqları**

**5.1.** BANM-də tətbiq olunan tədris proqramlarına uyğun təhsil almaq, bu standartlar çərçivəsində təlim almaq, elm, texnika və mədəniyyətin müasir səviyyəsinə uyğun müvafiq bilik qazanmaq, tədris fənlərinin seçilib müəyyənləşdirilməsində iştirak etmək;
**5.2.** BANM-in rektorunun razılığı ilə başqa ali məktəblərdə məşğələlərdə, treninqlərdə iştirak etmək;
**5.3.** BANM-in kitabxanasından, tədris, elmi və digər bölmələrin xidmətindən istifadə etmək;
**5.4.** tədrisin keyfiyyətini yüksəltmək üçün səmərəliləşdirici təkliflər vermək;
**5.5.** özünün şərəf və ləyaqətinə hörmət tələb etmək.

**Maddə 6. Tələbənin vəzifələri**

**6.1.** Bu qaydalara riayət etmək;

**6.2.** BANM-in əmlakının qorunması və korlanmasına yol verməmək;

**6.3.** Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini, bu Qaydaları, həmçinin ümumi əxlaq və etik davranış qaydalarını pozmamaq;

**6.4.** BANM-in təyin etdiyi müddət ərzində seçdiyi ixtisas üzrə tədris planları və tədris proqramlarını yerinə yetirmək;

**6.5.** bilik, praktiki vərdişlərə və seçilmiş ixtisas üzrə (istiqamətə görə) müasir tədqiqat metodlarına yiyələnmək;

**6.6.** tədris planı ilə nəzərdə tutulan tədris məşğələlərinin bütün növlərində iştirak etmək;

**6.7.** BANM-in İnzibati-təsərrüfat işləri üzrə prorektorunun icazəsi olmadan tədris auditoriyaları və digər otaqlardan əşya və ya müxtəlif avadanlıqları çıxartmamaq;

**6.8.** Öz hərəkətləri ilə BANM-ə maddi zərər vurduqda və ya BANM-in işgüzar nüfuzuna xələl gətirdikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dəymiş zərəri vaxtında ödəmək;

**6.9.** BANM tərəfindən tələb edilən zəruri sənədləri şifahi və ya yazılı sorğu alındığı andan 10 (on) iş günü müddətində təqdim etmək;

**6.10.** BANM-in mülkiyyətində və istifadəsində olan əmlaka, tədrisdə istifadə olunan avadanlıqlara, cihazlara, digər texniki vasitələrə, tədris vəsaitlərinə və s. qayğı ilə yanaşmaq;

**6.11.** BANM-in ictimai, mədəni, kütləvi, sosial və sair xarakterli tədbirlərində iştirak etmək, bu tədbirlərə gecikmələrə və tədbir zamanı davranış qaydalarının pozulması hallarına yol verməmək.

**6.12.** BANM tərəfindən təqdim edilmiş xüsusi geyim formalarına 5 (beş) il tədris müddətində qayğı ilə yanaşmaq, həmin formaları itirdikdə və ya yararsız hala saldıqda öz maddi imkanı hesabına yenisini almaq;

**6.13**. BANM tərəfindən təqdim edilmiş tələbə kartına təhsil aldığı müddətdə məsuliyyətlə yanaşmaq, həmin kartı itirdikdə və ya yararsız hala saldıqda öz vəsaiti hesabına yenisini əldə etmək;

**6.14**. Kitabxanada davranış, nizam-intizam və vurulmuş ziyana görə BANM-in 03.02.2014-cü il tarixli əmri ilə təsdiq edilmiş "Bakı Ali Neft Məktəbinin Kitabxanasınn Əsasnaməsi"nin müvafiq maddələrinin tələblərini yerinə yetirmək;
**6.15.** Yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla BANM-in binasına daxil olmamaq.

**Maddə 7. BANM-də tədris fəaliyyətinin təşkili**

**7.1.** Akademik qruplarda dərslər rektorun təsdiq etdiyi vaxt qrafikinə və dərs cədvəllərinə uyğun təşkil edilir.
**7.2.** Dərs cədvəlləri hər semestr üçün tərtib olunur, təsdiq edilir, dərslərin başlanmasına 3 gün qalmış dekanlıqların və ya kafedraların qarşısında müvafiq lövhələrdə asılır və BANM-in veb səhifəsində yerləşdirilir.

**8. Təhsildə yüksək göstəricilər əldə etmiş tələbələr üçün həvəsləndirmə tədbirləri**

**8.1.** Həvəsləndirmə tədbirləri rektorun əmri ilə sənədləşdirilir və tələbənin şəxsi işinə yazılır.
**8.2.** Təhsildə, elm-tədqiqat fəaliyyətində yüksək nailiyyətlər əldə etmiş və BANM-in ictimai, mədəni və kütləvi həyatında fəal iştirak etmiş tələbələrə aşağıdakı mükafatlandırma tədbirləri tətbiq edilir:

- təşəkkür;
- tərifnamə;
- qiymətli hədiyyə;
- pul mükafatı;
- xaricdə qısamüddətli təhsil;
- istehsalat təcrübəsinin xaricdəki müəssisələrdə təşkili;
- beynəlxalq konfranslarda iştirakın təşkili.

**8.3.** Aşağıda qeyd edilən meyarlara ötən tədris ili üzrə tam cavab verən 4 və 5-ci kurs tələbələri ödənişli istehsalat təcrübəsinə göndərilir:

- yüksək ( "A" və "B" almış) akademik göstəricilər əldə etmiş;
- elmi konfranslarda müvəffəqiyyətlə iştirak etmiş və ya mükafatlandırılmış;

-BANM-in tələbələrinin daxili intizam qaydalarına riayət etmiş (intizam tənbehi almamış);
- təhsil aldığı illər üzrə dərslərə davamiyyəti yüksək olmuş;
- ötən tədris ilində BANM tərəfindən təşkil edilmiş istehsalat təcrübəsini uğurla başa vurmuş və təcrübə keçdiyi müəssisədən uğurlu fəaliyyətə dair müvafiq sənəd (xasiyyətnamə, tövsiyə məktubu, sertifikat, diplom və s.) almış;
- BANM-in ictimai, mədəni və kütləvi tədbirlərində fəal iştirak etmiş, fərqlənmiş və BANM-in işgüzar nüfuzunu yüksəltməyə xidmət etmiş.

**Maddə 9. Tədris intizamının pozulmasına görə intizam məsuliyyəti və onun növləri**

**9.1.** Daxili intizam qaydalarını pozan tələbələrə və dinləyicilərə törətdikləri xətalarının dərəcəsindən asılı olaraq aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilə bilər:

**a)** töhmət vermək;

**b)** sonuncu xəbərdarlıqla şiddətli töhmət vermək;

**c)** sonuncu xəbərdarlıqla şiddətli töhmət verilməklə yanaşı edilən güzəştlərdən məhrum etmək;

**d)** BANM-in tələbələrinin və ya dinləyicilərinin siyahısından xaric etmək.

**9.2.** Tələbəyə intizam tənbehi verərkən onun şəxsiyyətini, kollektivdəki nüfuzunu, törətdiyi xətanın xarakterini və həmin əmələ öz münasibətini nəzərə almaq lazımdır. Bu maddənin birinci hissəsində qeyd edilmiş intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan tələbəyə yazılı və ya şifahi qaydada xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi sayılmır. Bu maddədə xəbərdarlıq dedikdə, tələbəyə üzərinə düşən vəzifələrin yerinə yetirilməsində və davranışlarında daha diqqətli olmasının vacibliyinin yazılı və ya şifahi şəkildə bildirilməsi başa düşülür. Bu maddədə töhmət dedikdə, tələbəyə tələbəlik vəzifələrində və davranışlarında qüsurların olduğunun yazılı şəkildə bildirilməsidir.

**Maddə 10. İntizam tənbehinin verilməsi qaydaları**

İntizam tənbehi verilməmişdən əvvəl tələbədən yazılı izahat tələb edilir. Tələbənin

yazılı izahat verməkdən imtina etməsi ona intizam tənbehi verilməsini istisna etmir.

**Maddə 11. İntizam tənbehi vermək səlahiyyəti olan şəxs**

**11.1.** İntizam tənbehi rektorun əmri ilə rəsmiləşdirilir.

**11.2.** BANM-in rektoru tələbələrə intizam tənbehi vermək səlahiyyətini əmri ilə prorektorlardan birinə və ya BANM-də çalışan digər səlahiyyətli şəxsə verə bilər.

**11.3.** Bu maddənin birinci və ikinci hissələrində göstərilən vəzifəli şəxslərdən savayı, başqa vəzifəli şəxslərin tələbələrə intizam tənbehi verməyə ixtiyarı yoxdur.

**Maddə 12. İntizam tənbehinin verilməsi şərtləri**

**12.1.** Bir intizam xətasına görə yalnız bir intizam tənbehi verilir. Bir dəfə törədilən bir intizam xətasına görə eyni zamanda bir neçə intizam tənbehi verilə bilməz. İntizam tənbehi verilən gündən altı ay müddətində qüvvədə olur.

**12.2.** Xəbərdarlıq istisna olmaqla, digər intizam tənbehi almış tələbəyə verilən güzəştlər intizam tənbehinin qüvvədə olduğu müddət bitənədək dayandırıla bilər.

**12.3.** İntizam tənbehi almış tələbənin tələbi ilə əmrin surəti ona təqdim olunmalıdır.

**12.4. Xəbərdarlıq edildiyi hərəkət və hallar**

a. Cəmiyyətdə qəbul olunmuş mədəni davranış qaydalarına zidd olan hərəkətlərə yol verildikdə;

b. Başqalarına qarşı kobud rəftar etdikdə, onları narahat edəcək şəkildə bağırdıqda, səs-küy saldıqda, bina və həyətin təmizliyinə riayət etmədikdə;

c. Əsaslı səbəb olmadan səlahiyyətli şəxslərin suallarına vaxtında cavab vermədikdə;

d. binanın koridorlarını, otaqlarını, pilləkənlərini, ətraf ərazisini tullantılarla, saqqızla, tum çırtlamaqla, istifadə edilmiş plastik stəkanlarla, digər əşyalarla, kağız parçaları ilə, yemək qalıqları ilə çirkləndirdikdə.

**12.5. Töhmət verildiyi hərəkət və hallar**

a. BANM-in divarlarının, əşyalarının üzərini cızdıqda və ya sındırdıqda, yazı yazdıqda, müxtəlif işarələr qoyduqda və ya şəkil çəkdikdə;

b. BANM-in işçilərinə yanlış məlumat verdikdə;

c. Xüsusi olaraq müəyyən edilmiş məkanlardan başqa yerlərdə elan asdıqda;

d. Mühazirə, seminar, məşğələ, laboratoriya işi, emalatxana işi və ya elmi fəaliyyətin gedişini pozduqda;

e. BANM tərəfindən asılan hər hansı elanı qopartdıqda, cırdıqda, dəyişdirdikdə və ya qaraladıqda.

f. BANM-in ərazisinə daxiloma qaydalarını pozduqda;

g. Bu qaydaların 12.4-cü maddəsində qeyd edilən hər hansı intizam xətasını təkrarən törətdikdə.

**12.6. Sonuncu xəbərdarlıqla şiddətli töhmət verildiyi hərəkət və hallar**

a. Öyrənmək və öyrətmək hüququnu birbaşa və ya dolayı yolla məhdudlaşdırdıqda, sakitliyi və ya iş şəraitini pozmağa yönəlmiş hərəkətlərə yol verdikdə;

b. BANM daxilində icazəsiz elan və bəyanatlar yaydıqda, afişa və plakatlar asdıqda;

c. BANM-dən aldığı bu və ya digər sənəddən başqasının istifadə etməsinə şərait yaratdıqda və ya başqasının sənədindən istifadə etdikdə;

d. BANM işçilərinin və ya tələbələrinin şərəf və ləyaqətini, şəxsiyyətlərini şifahi və ya yazılı olaraq hər hansı bir şəkildə alçaltdıqda, təhqirə yol verdikdə;

e. Dil, etnik və qeyri-ənənəvi dini mənsubiyyət, məzhəb fərqliliyi baxımından ayrı-seçkiliyə, ixtilaflara səbəb olacaq fəaliyyətlərə dəstək olduqda;

f. dərs müddətində və ya imtahan zamanı cib telefonlarından, tədris prosesində istifadə zərurəti olmadığı halda iPad və digər vasitələrdən, istifadə etdikdə;

l. BANM daxilində, həyətində və bayır divarlarından xaricdəki 10 m ərazidə (Xocalı prospekti 30 ünvanında yerləşən bina və BANM-in kampusunda) siqaret çəkdikdə;

m. Bu qaydaların 12.5-ci maddəsində qeyd edilən hər hansı intizam xətasını təkrarən törətdikdə;

n. imtahan prosesində digər tələbənin materialından köçürmə hallarına yol verdikdə,

başqalarına öz materialından köçürmək üçün şərait yaratdıqda və onların suallarının cavablarını yazılı və şifahi yolla verməyə cəhd göstərdikdə.

**12.7. Sonuncu xəbərdarlıqla şiddətli töhmət verilməklə yanaşı verilən güzəştlərdən məhrum edilmə halları**

a. Tədbir zamanı tədbirin gedişinin pozulmasına səbəb olduqda, tədbir proqramına xələl gətirəcək hərəkətlərə yol verdikdə;

b. BANM-in ərazisində spirtli içkilərdən istifadə etdikdə və ya mühazirə, seminar, konfrans, məşğələlərə içkili vəziyyətdə gəldikdə;

c. İcazəsiz, qeyri-qanuni toplantılar, mitinqlər, aksiyalar, nümayişlər zamanı onlara qoşulduqda və ya təbliğat apardıqda və belə fəaliyyətlərə təşəbbüs göstərdikdə;

d. Tələbələri və ya başqa şəxsləri BANM-in normal fəaliyyətini davam etdir-məsinə mane olacaq, gecikdirəcək hər hansı bir hərəkətə təhrik etdikdə.

**12.8. BANM-in tələbələrinin və ya dinləyicilərinin siyahısından xaric edilmə halları**

**12.8.1. Tələbə:**

- ✓ öz arzusu ilə;
- ✓ akademik uğursuzluğa görə;
- ✓ başqa təhsil müəssisəsinə köçürüldüyünə görə;
- ✓ tədris intizamını, təhsil müəssisəsinin daxili qaydalarını ciddi şəkildə pozduğuna görə (bir tədris ili ərzində iki şiddətli töhmət elan edildikdə);
- ✓ müəyyən kateqoriya xəstəliklərlə əlaqədar səhhətinə görə (həkim-məsləhət komissiyasının arayışına əsasən) tələbələr sırasından xaric edilir.

**Qeyd 1:** *Akademik uğursuzluq - Ali Məktəbdə cari, aralıq və dövlət attestasiyasının nəticələrinə görə mütəxəssis hazırlığı üçün tətbiq edilən proqramlar çərçivəsində tədris olunan fənlərin əksəriyyətinin məzmununu mənimsənilməməsi, mütəxəssis olmaq üçün tələb olunan bilik, bacarıq və vərdişlərə yiyələnilməməsi, tədrisdəki uğursuzluğu aradan qaldırmaq məqsədilə tələbə üçün Ali Məktəb tərəfindən yaradılmış şəraitdən və müəyyən edilmiş vaxtdan səmərəli istifadə edilməməsi, ümumiyyətlə tədris prosesində*

*uğur əldə etməyə cəhd göstərilməməsi.*

**Qeyd 2:** ***Tədris intizamı*** *– mütəmadi olaraq dərslərə gəlməmək, mütəmadi olaraq mühazirə, məşğələ və laboratoriya dərslərinin, aralıq və yekun imtahanların normal gedişinə hər hansı yolla müdaxilə edərək pozmaq, mütəmadi olaraq müəllimlərin verdiyi tapşırıqları yerinə yetirməmək, tədrisdə istifadə edilən vəsaitləri və materialları qəsdən sıradan çıxararaq dərslərin gedişini dayandırmaq, mütəmadi olaraq pedaqoji heyətin şərəf və ləyaqətini alçaldan hərəkətlərə yol vermək, tələbə həmkarlarını özünün BANM-in daxili qaydalarına zidd hərəkətlərə sövq etmək, tədris və biliklərin qiymətləndirilməsi proseslərinə özünün yaxınlarının (valideynlərinin, ailə üzvlərinin, dostlarının, qohumlarının və s.) müdaxilə etməsi üçün təşəbbüs göstərmək, kollektivdə ictimai təhlükəsizliyə, müəllimlərin və tələbələrin həyatı üçün təhlükə yaradan hərəkətlərə yol vermək, 2-ci dəfə imtahanlarda köçürmə hallarına yol vermək.*

**12.8.2. BANM:**

**12.8.3.** BANM-dən xaric edilmiş şəxslər hərbi xidmətə çağırışdan möhlət hüquqlarını itirirlər. Rektor tərəfindən həmin şəxslərin xaric olunması barədə onların hərbi uçotda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə bir həftə müddətində rəsmi məlumat verilir.

**12.8.4.** Tələbələr sırasından xaric edilmiş şəxsə onun müəyyən müddət BANM-də təhsil aldığını təsdiqləyən akademik arayış və əvvəlki təhsili haqqında sənədin əsli verilir. Həmin sənədin surəti və xaric olunma haqqında əmrdən çıxarış isə BANM-də saxlanılır.

### Maddə 13. Nəzərdə tutulmayan intizam pozuntuları

Bu qaydalarda nəzərdə tutulmayan intizam xətasına yol vermiş tələbəyə qarşı yuxarıda sadalanan intizam xətalarından ən oxşarı (törədilmiş hərəkətin xarakteri, ağırlıq dərəcəsi, şəxsiyyəti nəzərə alınmaqla) üçün müəyyən edilmiş intizam tənbehi tətbiq edilir.

### Maddə 14. İntizam pozuntusunun təkrar törədilməsi

İntizam tənbehinin qüvvədə olduğu müddət ərzində intizam tənbehi verilməsinə səbəb olan hər hansı bir hərəkət və ya hərəkətsizliyə təkrar yol verilərsə, müvafiq əməl üçün nəzərdə tutulan tənbehdən bir dərəcə ağır tənbeh tətbiq edilir.

**Maddə 15. Təhqiqatı başlatmaq səlahiyyətinə malik olan şəxs**

**15.1.** Aşağıdakı şəxslər subordinasiya qaydalarına uyğun olaraq onlara təqdim olunmuş müraciətlər əsasında intizam təhqiqatını başlatmaq səlahiyyətinə malikdirlər:

a. Hazırlıq kursunda oxuyan tələbənin törətdiyi intizam xətası müvafiq struktur bölmənin rəhbəri;

b. Bakalavriat səviyyəsində oxuyan tələbənin törətdiyi intizam xətası üçün struktur bölmənin rəhbəri;

c. Magistratura və aspiranturada oxuyan tələbənin törətdiyi intizam xətası üçün Ali təhsildən sonrakı təhsil şöbəsinin rəisi;

**15.2.** Təhqiqat başlatmaq səlahiyyətinə malik olan şəxslər təhqiqatı şəxsən özləri həyata keçirirlər. Bu qaydaların 15.1-ci bəndində qeyd edilmiş şəxslər işdə olmadıqda bu zaman onları rəsmi əvəz edən şəxslər müvafiq təhqiqatı apara bilərlər.

**Maddə 16. Təhqiqatın müddəti**

İntizam təhqiqatına bilavasitə hadisə haqqında məlumat daxil olduğu gündən sonrakı gündən gec olmayaraq başlanılır. Təhqiqat ən geci 15 (on beş) gün ərzində yekunlaşdırılmalıdır. Əgər təhqiqat yuxarıda qeyd olunmuş müddət ərzində başa çatdırılmazsa, təhqiqat aparan şəxs əsaslandırmaq şərti ilə əlavə müddət verilməsini rektordan xahiş edə bilər.

**Maddə 17. Təhqiqatın aparılma forması**

Təhqiqatı aparan şəxs şahidləri dinləyə, araşdırma apara və sübutları toplaya bilər. Hər bir təhqiqat prosesi üçün ayrıca protokol tərtib olunur. Protokolda hadisənin harada və nə zaman baş verdiyi, mahiyyəti, kimlərin iştirak etdiyi, həmçinin verilən sual və cavabları da əhatə edəcək şəkildə alınmış ifadələr öz əksini tapdıqdan sonra təhqiqatı aparmış şəxs tərəfindən imzalanır. BANM-in bütün işçiləri təhqiqatı aparan şəxsin tələb

etdiyi hər növ məlumatı, qovluq və ya digər sənədləri qeyd-şərtsiz təqdim etməli və lazımı köməkliyi göstərməlidirlər.

**Maddə 18. Təhqiqatın yekunlaşdırılması**

Təhqiqat tamamlandıqdan sonra xidməti yazı ilə rektora müraciət edilir. Xidməti yazıda təhqiqatın başlama və bitmə tarixi, barəsində təhqiqat aparılan şəxsə aid məlumatlar, törədilmiş hərəkətin qısa məzmunu qeyd edilir və tətbiq ediləcək intizam tənbehi təklif olunur. Əgər rektor tərəfindən aparılmış təhqiqatın obyektivliyinə şübhə yaranarsa onun əmri ilə 3 (üç) nəfərdən ibarət intizam komissiyası yaradılır və komissiya bu qaydalara uyğun olaraq təhqiqatı yenidən başlayır.